“Takvimi-vekayi” – 190

# Türk mətbuatının qaranquşu

***İstanbulda ana dilində ilk mətbuat orqanı – “Takvimi-vekayi” adlı qəzetin 1831-ci il noyabrın 1-də nəşrə başlamasından 190 il keçir. Bu tarixdən başlayaraq qardaş Türkiyədə mətbuat böyük və mürəkkəb yol keçmişdir.***

Sultan II Mahmudun dövründə milli mətbuatın yaradılması, inkişafı və jurnalistlərin fəaliyyəti üçün “yaşıl işıq” yandırılmışdır. O, “Takvimi-vekayi” barədə demişdir: “Bu qəzet müqəddəs şəriətə və dövlət quruluşumuza toxunmamaq şərti ilə mənim iqtidarıma çox yardımçı olacaqdır”.

Sultan Əbdülməcid isə “yaşıl işığı” “qırmızı işıqla” əvəz etmiş, cəmi 3 ay hakimiyyətdə olan Sultan Əbdüləziz “qırmızı işığı” yığışdırmışdır. Sultan II Əbdülhəmid isə Türkiyənin jurnalistika tarixində mətbuat üzərində misli görünməmiş qadağalar qoymuş, jurnalistlərin gərgin mübarizəsi nəticəsində elan olunmuş konstitusiyanı ləğv etmiş, mətbuat işçilərinin bir çoxunu ölkənin ucqar yerlərinə sürgünə göndərmişdir. Jurnalistlərin ən fəalları xarici ölkələrə köç etməyə və orada jurnalistika sahəsində çalışmağa məcbur olmuşlar.

“Gənc türklər” ilk vaxtlar mətbuat azadlığına lazımi şərait yaratsalar da, sonralar “peşmançılıq” çəkərək, qəzet və jurnalların fəaliyyətini məhdudlaşdırmağa başlamışlar. Kamal Atatürkün yaratdığı Türkiyə Respublikasında mətbuat azadlığı mövcud olsa da, ondan sonra hakimiyyətə gələnlər qəzet və jurnalların fəaliyyəti üzərində ciddi nəzarət qoymuş və jurnalistlərin təqib olunmasını davam etdirmişlər.

Bütün əngəllərə və maneələrə baxmayaraq, Türkiyədə jurnalistika daim inkişaf etmiş, ölkə milli ənənələr çərçivəsində Avropanın və Amerikanın müsbət təcrübəsindən bəhrələnmişdir. Bu gün türk mətbuatı özünün forma və məzmununa, maddi-texniki bazasının zənginliyinə, jurnalist kadrlarının hazırlıq səviyyəsinə görə dünyanın aparıcı ölkələri ilə rəqabət aparmağa qadirdir. Bəs Türkiyədə mətbuat necə yaranmışdır?

Doğrudur, Türkiyədə ilk kitab 1729-cu ildə çap edilmişdi. XVIII əsrin axırlarında ölkədə fransız dilində qəzetlər çıxmağa başlamışdı. Türkcə ilk qəzet 1816-cı ilin noyabr ayında Bağdad valisi Kölømən Davud paşa tərəfindən nəşr edilməyə başlamışdır. 1827-ci ildə Misir valisi Məhəmməd Əlinin təşəbbüsü və bilavasitə iştirakı ilə ərəb və türk dillərində “Qurnal əl-Hediv” adlı qəzet işıq üzü görmüşdür. Lakin bunu türklər nadir hallarda oxuyurdular– ərəb və fransız dillərini yalnız yüksək vəzifəli məmurlar və onların ailə üzvləri bilirdilər.

Böyük Fransa inqilabı zamanı təqiblərdən yaxa qurtaran Aleksandr Blak adlı fransız İzmirdə məskunlaşaraq jurnalistika ilə məşğul olmuşdu. Onun yaratdığı və birinci sayı 1821-ci il martın 24-də çapdan çıxan “Spektator Oriyental” (“Şərq qəzeti”) qəzeti Osmanlı hökumətinin lehinə, ingilislərin və rusların əleyhinə yazılar verмişdi. Osmanlı imperatorluğunun mənafeyini hər şeydən üstün tutan və bunu dünyaya çatdıran, ümumən siyasi məzmunlu materiallar çap edən qəzet Türkiyə mətbuatı tarixində əhəmiyyətli yer tutur.

Osmanlı tarixində yeniliklər və islahatlar müəllifi kimi tanınan, mətbuatın cəmiyyətdəki rolunu dərindən dərk edən sultan II Mahmud Aleksandr Blakın jurnalistlik fəaliyyəti ilə maraqlanmışdı. O, Aleksandr Blakı saraya dəvət etmiş və İstanbulda qəzet yaratmağı təklif etmişdir.Təklifdən razı qalan naşir “Montitor Ottoman” (“Osmanlı qəzeti”) qəzetini fransız dilində buraxmağa başlamışdı.

Sultan II Mahmud türk dilində qəzetin zəruriliyini gözəl dərk edirdi. Xalq kütlələrinə siyasi, sosial və iqtisadi hadisələr haqqında məlumat vermək, cəmiyyətin istək və arzularını, hökumət işlərinin gedişini əhaliyə çatdırmaq vacib hesab olunurdu və beləliklə, Almaniyada (həm də bütün dünyada) ilk çap qəzetinin nəşrə başlamasından 222 il, Fransada ilk qəzetin yaranmasından 200 il, Rusiyada “Vedomosti”nin işıq üzü görməsindən 129 il sonra türk dilində ilk qəzet meydana gəlmişdi.

Mətbuat orqanının yaradılmasında məqsəd bütün Osmanlı vətəndaşlarının həm ölkə daxilində, həm də dünyada baş verənləri öyrənmələrinə şərait yaratmaq, yalan xəbərlərin yayılmasının qarşısını əvvəlcədən almaqla asayişin pozulmasına mane olmaq, sənət, sənaye və ticarətə dair məlumatları xalqın malına çevirmək, dövlət qərarlarının əhali arasında təbliğini gücləndirmək idi. Bunlarla yanaşı, “Təkvimi-vəkayi” maarifçilik ideyalarını yaymaq kimi mühüm bir vəzifəni də yerinə yetirməli idi. Təhsil məsələsi ön plana çəkilirdi. Bu, təhsillə bağlı 1824-cü ildə elan edilmiş fərmana tamamilə uyğun gəlirdi. Qeyd etmək lazımdır ki, həmin fərmanda uşaqların təhsilə cəlb edilməsi sahəsində mühüm tədbirlər nəzərdə tutulurdu.

Qəzetin buraxılması üçün “Təqvimxaneyi amirə mətbəəsi” və “Təqvim nəzarəti” nəşriyyatı yaradılmışdı. Bunlara rəhbərlik bir zamanlar Məkkə qazisi olmuş Seyid Məhəmməd Əsədə tapşırılmış, buraya xeyli mütəxəssis cəlb edilmişdi. II Mahmud qəzetə mühüm əhəmiyyət vermiş və olduqca böyük bir təşkilat yaratmışdı. Əsəd əfəndidən başqa, qəzetdə çalışan və xəbər toplamaqla məşğul olan daha iki şəxs fəaliyyət göstərirdi: daxili xəbərləri Sərim əfəndi, ordu xəbərlərini isə Səid bəy hazırlayırdı.

Qəzetin adının seçilməsi haqqında sultandan göstəriş alanların heç birinin təklifi bəyənilməmişdi. Sultanın özünün təklifi ilə “Takvimi-vekayi” adının müəyyənləşdirilməsi faktının özü də II Mahmudun mətbuat orqanına necə böyük əhəmiyyət verdiyini sübut edir. Qəzetin ilk sayı 8 səhifə mətn, ayrıca 2 səhifə də ön söz olaraq çıxmışdı. Yazılar 6 şöbədə: “Daxili xəbərlər”, “Xarici xəbərlər”, “Ordu işləri”, “Elmlər”, “Din adamlarının təyinatları”, “Ticarət və qiymətlər” şöbələrində verilmişdir.

Qəzet həftəlik olsa da, müntəzəm çıxmamış, bəzi illərdə 8-12 nömrə, ən çox çıxdığı illərdə isə nömrələrin sayı 35 və ya 46 olmuşdur. Əlbəttə, belə vəziyyətdə olan qəzet yeni xəbərlər vermək imkanından məhrum idi. Heç təsadüfi deyildir ki, o zamanlar Məclisi-Valə başqanı olan Rüfət paşa qəzetin fasilələrlə çıxmasını tənqid etmiş, “tarixi lap yeni, məzmunu isə lap köhnə qəzet” demişdir. Bunun bir sıra səbəbləri vardı. Başlıca səbəb isə redaksiyada peşəkar jurnalist kadrlarının olmaması idi. Yazıların əksəriyyətini mədrəsələrin məzunları hazırladığından redaktə işində çox ciddi çətinliklər yaranırdı. Bu azmış kimi, əməkdaşların böyük hissəsi əvvəlki iş yerlərində də fəaliyyət göstərirdi. Buna görə də onlar redaksiyadakı vəzifələrinin öhdəsindən vaxtında gələ bilmirdilər.

Sultan II Mahmud qəzetin fəaliyyəti ilə yaxından maraqlanır, onun dilinin sadəliyinə böyük əhəmiyyət verirdi. Bunu belə bir faktdan da görmək mümkündür ki, qəzetin rəhbəri Əsəd əfəndi sultanın gəzintisini əks etdirən yazını qəzet çapa getməzdən əvvəl padşaha vermiş və hökmdardan belə bir cavab almışdı: “Hamı üçün nəşr olunan şeylərdə yazılacaq sözlər hər kəsin anlaya biləcəyi şəkildə olmalıdır. Çətin anlaşılan sözlərin türkcə izah edilməsi zəruridir”. Bu göstərir ki, o dövrdə qəzetin dili xalqın asan oxuması və anlaması üçün əlverişli deyildi.

Türk mətbuatının ilkini “Takvimi-vekayi” haqqında danışarkən onunla bağlı bəzi məsələləri qeyd etmək yerinə düşərdi. Senzuranın son dərəcə ciddiliyi üzündən həmin qəzetin bəxtinə vaxtaşırı bağlanmaq düşmüşdür. 1879-cu ildə bağlanmış və 12 il çıxmamış, 1891-ci ildə yenidən nəşrə başlamış, 12 aydan sonra bir daha bağlanmışdır.



1908-ci ildə yenidən nəşrə başlayan “Takvimi-vekayi” 1922-ci ilədək, yeni İstanbul hökuməti süquta uğrayanadək çıxmışdır. Türkiyə Böyük Millət Məclisi tərəfindən 1920-ci ildə nəşrə başlayan “Cərideyi-rəsmiyyə” bir növ həmin qəzetin davamı olmuşdur. 1922-ci ildə qəzet “Rəsmi cəridə”, 1928-ci ilin yanvarında isə “Rəsmi qəzetə” adlandırılmışdır. Həmin qəzet hazırda sırf rəsmi dövlət mətbuat orqanı kimi Ankarada öz nəşrini davam etdirir.

Qəzetin hər cür nöqsanlarına baxmayaraq, uzun müddət yeganə türk qəzeti kimi fəaliyyət göstərmiş, Türkiyə cəmiyyətinin həyatında müsbət rol oynamışdır. Türkiyə mətbuatı tarixinin araşdırıcılarından bəziləri “Takvimi-vekayi”dən danışarkən onu rəsmi qəzet olduğuna görə ilk mətbuat orqanı hesab etmək istəmirlər. Belələri mətbuat tarixini xeyli geri çəkməyi, ilk sayı 1860-cı ildə işıq üzü görmüş ilk özəl qəzet olan “Tərcümani-əhval” və ya 1862-ci ildə əsası qoyulmuş fikir qəzeti “Təsviri əfkar”dan başlamağı təklif edirlər. Bu fikirlərdə müəyyən həqiqət olsa da, onu qəbul etmək düzgün hesab edilməzdi.

Dünya təcrübəsinə uyğun olarq, “Takvimi-vekayi” ilk türk qəzetidir və Türkiyə jurnalistikasının tarixi məhz onun nəşrə başlaması günündən hesab edilməlidir. Bu qəzetdə sultanın fərmanları, digər rəsmi materiallarla yanaşı, saysız-hesabsız qeyri-rəsmi materiallar da çap olunmuşdur. Bəlkə, bütün bunları nəzərə alan türk mətbuatı tarixinin məşhur tədqiqatçısı Sərvər İskit yazır: “Biz belə hesab edirik ki, mətbuatımızın tarixi “Takvimi-vekayi”nin nəşri ilə başlanmışdır. Doğrudur, bu qəzet rəsmi dövlət orqanı idi və bu, digər ölkələrdə olduğu kimi, inkişaf etməkdə olan milli ideya hərəkatının ifadəçisi və carçısı olmamışdır. Bununla belə, dilimizdə çıxan bir qəzet olub, qeyri-rəsmi yazılara da yer verirdi”.

***Həmid VƏLİYEV,***
***Bakı Dövlət Universiteti Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının müdiri, professor***